# Heydər Əliyevin 95-ci ildönümünə həsr edilib

***Rayon təhsil şöbəsində Heydər Əliyevin anadan olmasının 95-ci il dönümünə həsr olunmuş geniş tədbir keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin nümayəndələri, ümumtəhsil məktəblərinin müəllimləri, uşaq yaradıcılıq və inkişaf mərkəzinin pedaqoji kollektivi iştirak edib.***





Mərasimdə Bunud kənd tam orta məktəbinin müəllimi Fuad Əlifov ulu öndər Heydər Əliyevin siyasi fəaliyyəti ilə bağlı “Müasir Azərbaycanın memarı” mövzusunda məruzə edib.

Məruzə ətrafında rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, şəhər 3 nömrəli məktəbin müəllimi Mələykə Rəsulova, şəhər 5 nömrəli məktəbin müəllimi Aygün Əliyeva və digərləri Heydər Əliyevin siyasi fəaliyyəti haqqında ətraflı çıxış ediblər.

Sonra uşaq yaradıcılıq inkişaf mərkəzinin “Təbəssüm” qrupunun ifasında rəqslər təqdim olunub.

Yekunda tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin həyatını və fəaliyyətini əks etdirən sərgiyə baxmışlar.

**Rasim BAYRAMOV,**
**rayon təhsil şöbəsinin işçisi.**
**Səhrab Umuyev (foto).**

# Zona birinciliyi keçirilmişdir

***Mayın 4-də Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin əhatə etdiyi rayonların təhsil müəssisələri arasında “Gənc xilasedici və yanğınsöndürən” yarışlarının zona birinciliyi keçirilmişdir.***

***Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə keçirilən birinciliyin əsas məqsədi şagirdlərin fövqəladə hallara hazırlıqla bağlı fiziki və intellektual səviyyəsinin yoxlanılması, məktəblilərdə şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin artırılması və gənc nəslin nümayəndələrinə sağlam həyat tərzinin təbliğindən ibarət olmuşdur.***

Tədbirin açılışında Şimal-qərb Regional Mərkəzinin rəisi, polkovnik-leytenant Sadiq Bəkirli, rayon İcra hakimiyyətinin, təhsil şöbəsinin, gənclər və idman idarəsinin nümayəndələri çıxış edərək yarışın əhəmiyyətindən danışmış, iştirakçılara uğurlar arzulamışlar.

Yarış “Kombinə edilmiş yanğın estafeti”, “Maneələr zolağı” və “Komandaların təqdimatı” adlı üç mərhələdən ibarət olmuşdur.

Gərgin mübarizə şəraitində keçən yarışların yekunlarına əsasən, Qax şəhər 2 nömrəli məktəb-liseyi I yeri, İsmayıllı şəhər 6 nömrəli tam orta məktəbi II yeri, rayonumuzun Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbi isə III yeri tutmuşdur. Yarışda fərqlənmiş komandalar müvafiq yerlər üzə diplomlarla təltif olunmuşdur.

Birinci yeri tutan komanda “Gənc xilasedici və yanğınsöndürən” yarışlarının respublika mərhələsində iştirak etmək hüququ əldə etmişdir.

**FHN Şimal-qərb Regional Mərkəzinin ictimaiyyətlə əlaqə və təbliğat sektoru.**

*Rayon gənclər və idman idarəsində*

# Kompüter oyunları üzrə çempionat

***Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə aprelin 27-də gənclər arasında kompüter oyunları üzrə rayon çempionatı keçirilmişdir. 30 nəfər gəncin qatıldığı çempionatda “PES-18” və “Counter-Strike” oyunları üzrə yarışlar təşkil olunmuşdur.***

Kiber idmanı populyarlaşdırmaq, gənclərin müasir informasiya-kommunikasiya texnologiyalarına və kompüter texnikasına marağını artırmaq məqsədi güdən kompüter oyunlarında zehni inkişaf etdirmək, alternativ vəziyyətlərdə nə edə bilmək imkanları vardır ki,bu da gənclərdə qərar vermək mədəniyyətini formalaşdırır.

Çempionatın açılışında rayon gənclər və idman idarəsinin baş məsləhətçisi Məhəmmədəli Səfərçinov yarış haqqında məlumat vermişdir.

Çempionatda “PES-18” oyunu üzrə Nemət Manafov I yerə, Cavid Bəkirli II yerə və Nəriman Mahmudzadə III yerə layiq görülmüşlər. Komanda hesabı üzrə keçirilən “Counter-Strike” oyununda “Qəbələ” komandası I yeri tutmuşdur.

Qaliblərə gənclər və idman idarəsinin diplomları təqdim edilmiş və onlar kompüter oyunları üzrə Oğuz rayonunda keçiriləcək Azərbaycan çempionatının zona yarışında iştirak etmək hüququ əldə etmişlər.

**Mübariz AĞAYEV,**
**idarənin aparıcı məsləhətçisi.**

# Sərbəst güləş üzrə rayon birinciliyi

***Gənclər və idman idarəsinin təşkilatçılığı ilə yeniyetmə və gənclər arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə Qəbələ rayon açıq birinciliyi keçirilmişdir. Yarış mayın 5-də olimpiya idman kompleksində baş tutmuşdur. Yarışda Qəbələ, Mingəçevir, Ağdaş, Göyçay və Ucar rayonlarından olan 100-dən artıq idmançı iştirak etmişdir.***

Birinciliyin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək yarış haqqında məlumat vermiş, ulu öndər Heydər Əliyevin idmanın inkişafı istiqamətində gördüyü işlərdən danışmışdır. Fəxri Soltanov çıxışında respublikanın hər yerində olduğu kimi Qəbələ rayonunda da idmanın maddi-texniki bazasının möhkəmləndirilməsindən, ölkə Prezidenti İlham Əliyev tərəfindən idmançılara göstərilən diqqət və qayğıdan danışaraq yarış iştirakçılarına uğurlar arzulamışdır.

Açılış mərasimindən sonra meydan birincilik uğrunda mübarizəyə başlayan güləşçilərin ixtiyarına verilmişdir.

Yarışda iki yaş qrupunda 16 çəki dərəcəsi üzrə 100-dən çox yeniyetmə güclərini sınamışdır.

Yarışın keçirilməsi Azərbaycan



Güləş Federasiyasının qaydaları əsasında rayon Gənclər və İdman idarəsi tərəfindən təsdiq edilmiş hakimlər heyətinə həvalə edilmişdir.

Birinciliyin qalibləri Heydər Əliyev Mərkəzində mükafatlandırılmışlar. Yarış iştirakçıları əvvəlcə ulu öndərin həyat və fəaliyyətini əks etdirən ekspozisiyaya baxmışlar.

Sonda gərgin idman mübarizəsi şəraitində keçən birinciliyin qaliblərinə gənclər və idman idarəsinin diplom və medalları təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**Səhrab Umuyev (foto).**

# Maarifləndirici tədbir

***Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Avropa İttifaqının maliyyələşdirdiyi “Qəbələ İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahəsində dual peşə təhsil və təlim pilotlarının yaradılması” (EDVET) qrant layihəsinə uyğun olaraq təşviqat tədbiri keçirilib.***



Tədbirdə rayon icra hakimiyyətinin, inzibati ərazi nümayəndəliklərinin məşğulluq mərkəzinin əməkdaşları, özəl sektor təmsilçiləri və digər maraqlı tərəflər iştirak edib.

Maarifləndirmə xarakteri daşıyan tədbiri rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev açıb.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayev çıxış edərək layihə ilə bağlı məlumat verib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndə heyətinin rəhbəri Kestutis Yankauskas çıxışında peşə təhsili sahəsindəki milli kurikulumun Avropanın qabaqcıl peşə təhsili müəssisələrinə inteqrasiyasının əhəmiyyətindən danışıb.

Sonra Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Azad Məmmədov maarifləndirici xarakter daşıyan görüşün ümumtəhsil məktəbləri şagirdlərinin, özəl sektorun--xüsusilə kiçik və orta sahibkarların mərkəzdə hazırlanan yüksək ixtisaslı kadrlara olan maraqlarının artırılmasına, onların tədris ocağı ilə əməkdaşlıqlarının genişləndirilməsinə və dual peşə təlimlərinin mütərəqqi xüsusiyyətləri barədə məlumat almalarına xidmət etdiyini diqqətə çatdırmışdır.

Daha sonra peşə təhsili və təlimi üzrə ekspert Şəlalə Kamilova, “Gilan” Aqrotexservisin nümayəndəsi Mustafa Əliyev, “Aqrokompleks” Qəbələ MMC-nin nümayəndəsi Sübhan Dadaşov, AS-Pİ-AQRO MMC-nin təmsilçisi Tanrıverdi Allahverdiyev çıxış etmişlər.

Yekunda tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

**“Qəbələ”**
**Səhrab Umuyev (foto).**

# Şuşa unudulmur

Qəbələ şəhər Ş.Bulqədirov adına 5 nömrəli məktəbdə Şuşanın işğalı günü ilə əlaqədar tədbir keçirilmişdir.

Tədbirdə məktəbin pedaqoji kollektivi, yuxarı sinif şagirdləri, təhsil şöbəsinin məsul işçiləri iştirak ediblər.

Tədbiri uşaq birliyinin rəhbəri Nəzakət Paşayeva açıb. Məktəbin tarix müəllimi Abgül Xancanova Şuşanın tarixi, erməni vəhşiləri tərəfindən işğala məruz qalma səbəbləri barədə məruzə etmişdir.

Rayon təhsil şöbəsinin metodisti Tərbiyə İsayeva əminliyini bildirmişdir ki, möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Şuşa və bütün Qarabağ tezliklə erməni işğalından azad ediləcək.

Məktəbin direktoru Zərnişan Ağakişiyeva tədbiri yekunlaşdıraraq erməni vandallarının xalqımızın başına gətirdiyi vəhşiliyi unutmamağa çağırmışdır.

Tədbir şagirdlərin hazırladığı kompozisiya ilə başa çatmışdır.

**«Qəbələ»**